

# 2021-ci il mədəniyyət tariximizdə zəngin bir il oldu

*Siyavuş KƏRİMİ,*
*Xalq artisti, professor*

**– 2021-ci il uzun illər boyu arzusunda olduğumuz, lakin reallaşdıra bilmədiyimiz mədəni tədbirlərin keçirilməsi ilə yadda qaldı. Qazandığımız Qələbə dərin köklərə malik mədəniyyətimizin dirçəldilməsinə yol açdı. "Qarabağ mədəniyyətimizin beşiyidir" ifadəsi dilimizin əzbərinə çevrildi.**

Cənab Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı sərəncamla Şuşa ölkəmizin mədəniyyət paytaxtı elan edildi və bu Azərbaycan mədəniyyətinin inkişafına yeni nəfəs verdi. Artıq bir-birinin ardınca, torpağına qədəm basıb, doya bilmədiyimiz Qarabağımızda müxtəlif mədəni tədbirlərin keçirilməsi bir başqa təəssürat, ovqat yaratmış oldu. Daha bir qürur hissini isə Prezident İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşanın Cıdır düzündə mayın 12-də və 13-də keçirilən "Xarıbülbül" Musiqi Festivalı bizə yaşatdı. Bu festivalın keçirilməsi bütün dünyaya "Azərbaycan – millətindən, dilindən aslı olmayaraq, hər kəsin vahid Vətənidir" ismarıcını çatdırmış oldu. Daha bir tədbir – Vaqif Poeziya Günləri avqustun 30-da Heydər Əliyev Fondu tərəfindən Şuşada təşkil olundu.

Əvvəldə qeyd etdiyimiz kimi, torpaqlarımızın işğalda olduğu 30 ilə yaxın bir müddət ərzində reallaşdırdığımız hər hansı bir tədbir, bu gün keçirilən festival qədər fərəhli, qururverici olmamışdır. Necə ki, 2021-ci il sentyabrın 18-də keçirilən "Üzeyir Hacıbəyli adına XIII Beynəlxalq Musiqi Festivalı" yaddaşlardan heç zaman silinməz, daima xatırlanacaq tarix kimi böyük əhəmiyyət daşıyır.

Mədəniyyət tariximizə həkk olunan daha bir əlamətdar hadisə, Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında sərəncamı dahi şairimizə hər zaman böyük diqqət və ehtiramımızın bir daha sübutu kimi qeyd olundu.

2021-ci ildən hər zaman yaddaşlarımızda qalan, qürurumuzu sarsılmağa qoymayan bir tarixi günü – "Zəfər Günü"nü qeyd etdik. Bu tarix mədəniyyətimizin bütün sahələrinə sirayət edərək ruhumuzu yenilədi. Silsilə tədbirlərin keçirilməsi isə o əzəmətli Qələbənin sevincini bizə yenidən yaşatdı. Qələbəyə həsr olunmuş tədbirlər siyahısına Heydər Əliyev Sarayında Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası, Azərbaycan Milli Konservatoriyasının tələbə xoru və solistlərin iştirakı ilə Azərbaycan bəstəkarlarının qələbəyə həsr olunmuş "Qarabağ Azərbaycandır!" simfonik konserti, "Qarabağ şikəstəsi" oratoriyası, "4.4" Qısa Tamaşalar Festivalı böyük maraqla qarşılandı. Eyni zamanda, Beynəlxalq Muğam Mərkəzində "Havalansın Xanın səsi!" milli musiqi axşamı, "Jazz says Victory" adlı caz axşamı, Dövlət Uşaq Filarmoniyasında balaca istedadların ifasında Zəfər konserti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında "Cavad xan" baleti, Kamera və orqan musiqisi zalında gənc istedadların iştirakı ilə konsert, teatr müəssisələrində vətənpərvərlik mövzusunda tamaşaların nümayişi tamaşaçılara əsl bayram ovqatı yaşatdı.

Bu tədbirlərin keçirilməsi Azərbaycan xalqının mədəniyyətə hər zaman yüksək dəyər verdiyini sübut etmiş oldu. Və biz əminliklə deyə bilərik ki, əzəmətli Zəfərimizdən sonra mədəniyyətimiz daha yüksək zirvələr fəth edəcək.

Xalq qəzeti .- 2022.- 6 yanvar.- S.6.